# Milli-mənəvi dəyərlərimizin qorunması əsas konseptual problem kimi



**Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Xalqı xalqdan, milləti millətdən ayıran milli dəyərlər cəmiyyətdə insanların münasibətini tənzimləyən gözəl davranış formasıdır.**

Bunları qoruyub saxlamaq milli yiyəlik hisslərinə sahib çıxmaq, itirmək isə xalqın öz simasını itirmək deməkdir. Bu milli-mənəvi dəyərlər ilk öncə xəzinələri yaradır, sonra öz növbəsində isə bu sərvətlər xalqları, millətləri yaşadır, onları əbədi və qüdrətli edir.

Tarixi təcrübə göstərir ki, hər hansı bir dövlət digərini əsarət altına almaq istədikdə, onun dilini, sosial yaddaşını, mənlik şüurunu əlindən almağa, onun mədəniyyətini məhv etməyə çalışıb. Bu barədə fatehlərin belə bir tövsiyəsi var: "Bir xalqı diz çökdürmək, onu qula çevirmək və nəhayət məhv etmək üçün ilk növbədə onun dilini əlindən al, sonra onun milli adət-ənənələrini yasaqla və nəhayət onun tarixini sapdır və qəflətdə saxla. Öz dilindən, milli adət-ənənələrindən və gerçək tarixindən məhrum olunmuş xalq mütləq məhvə məhkumdur".

\Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir - Azərbaycan dilidir, bizim adət-ənənələrimizdir. Mənəvi əxlaqi mentalitetimizdir. Məhz mədəniyyətimizin müasir mədəni-kütləvi tədbirlərimizin tarixi kökləri milli dəyərlərimizlə, qədim milli, dini adət-ənənələrimizlə, bayram və mərasimlərimizlə əlaqələndirilir. Belə ki, hər bir millətin, xalqın bədii yaradıcılıq nümunələri adət-ənənə məkanında klassikləşmiş, mədəni irsə çevrilmişdir.

Azərbaycanın 200 ilə yaxın Rusiyanın imperiya əsarəti altında olması bir çox milli və dini adət-ənənələrimizin ciddi siyasi və mənəvi təzyiqlər altında qalmasına səbəb olmuş, mərkəzin siyasəti ilə bir sıra bayramlarımızın keçirilməsinə qadağalar qoyulmuşdur. Hətta min illər boyu xalqımızın nəsildən-nəsilə miras qoyduğu, azəri türklərinin həyat tərzini, milli şüurunu, qədim adət-ənənələrini özündə hərtərəfli əks etdirən, milli-mənəvi sərvətimizin ən əvəzsiz incilərindən olan Novruz bayramı, vətənpərvərliyi, qəhrəmanlığı və ən ülvi dünyəvi hissləri tərənnüm edən "Kitabi-Dədə Qorqud" eposu və başqa bunun kimi yüzlərlə xalqın özünə qayıtmasına, özünü dərk edə bilməsinə şərait yaradan mənəvi "qidalar" açıq-aşkar qadağan edilmişdir. Bu da təbii ki, zaman-zaman öz mənfi nəticəsini göstərməyə bilməzdi. Belə ki, bütün bu proseslər nəticəsində yetişməkdə olan nəsillər öz milli mentalitetindən uzaq və deməli olar ki, xəbərsiz formalaşmaqda idi. Lakin öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Qurban, Novruz, Ramazan kimi dini, milli bayramlarımız rəsmi səviyyədə, təntənəli şəkildə qeyd olunmağa başlanmışdır və birliyimizi əks etdirir.

O cümlədən, ermənilər daim milli-mənəvi sərvətlərimizi məhv etməyə, oğurlayıb özününküləşdirməyə çalışıblar. Düşmənlərimiz torpaqlarımızı işğal etməklə kifayətlənməyib bir çox mədəni-tarixi abidələrimizi dağıtmış, milli-mənəvi sərvətlər fondumuza məxsus olan xalq mahnılarımızı, milli xörəklərimizi və s. dəyərlərimizi oğurlayıb öz adlarına çıxarmağa, öz milli-mənəvi ehtiyatlar fondunu artırmağa və bunu dünya ictimaiyyətinə yaymağa çalışmışlar.

Milli-mənəvi dəyərlərimizin göstəricilərindən biri olan adət-ənənələr uzun əsrlər boyu xalqımızın milli ruhunu, estetik duyumunu, sənətkarlıq qüdrətini özündə hifz edib saxlamışdır. Zəngin folklor nümunələrimiz məhz adət-ənənələrimiz hesabına itib batmamış, müasir dövrümüzə qədər gəlib çatmışdır. Bu folklor nümunələrimiz zəngin mədəni irs olmaqla bərabər, müxtəlif mədəni-kütləvi tədbirlərdə həm də ifadə vasitəsinə çevrilmişlər.

Adət-ənənə ilə əxlaq arasında möhkəm qarşılıqlı əlaqə vardır. Daha doğrusu, hər bir ənənə müəyyən əxlaqi məna daşıyır, həmin adətləri itirmək, onları qoruyub saxlamağı bacarmamaq ciddi narazılığa, insan münasibətlərinin kəskinləşməsinə, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətin meydana gəlməsinə səbəb olur. Əxlaqi adət-ənənələr, qayda və tələblər daha çox ictimai rəyə əsaslanan yazılmamış ünsiyyət qanunları kimi fəaliyyət göstərir.

Ən başlıcası budur ki, insan özünüdərk prosesində özü haqqında biliklər əldə edir, özü haqqında bilmədiyi biliyi qazanmaq isə insanın hisslərini, duyğularını ülviləşdirir, təfəkkürünün zənginləşməsinə, onun mentalitetinin məzmununa yeni keyfiyyət gətirən yollar açır. Bu proses insanın öz ətrafına və özünə münasibəti təcrübəsini müdrikləşdirir, mənəviyyatını və mentalitetini saflaşdırır. Bu isə bütövlükdə düşüncə sahibli fərdlərdən ibarət cəmiyyəti saflaşdırır.

Xalqın sağlam mentaliteti, xüsusilə onun tarixi yaddaşında saf mental xüsusiyyətlərin mövcudluğu ona mədəniyyətin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə və dünya miqyasında tanıdılmasına imkan vermişdir.

Yuxarıda qeyd etdiyimiz kimi müstəqilliyə qovuşmazdan əvvəl incəsənətin milli dəyərlərimiz sayılan milli mentalitetlə qarşılıqlı əlaqələrinin öyrənilməsinə müəyyən obyektiv səbəblərə görə az diqqət yetirilmişdir. Azərbaycanda bədii-emosional yaradıcılığın milli-mənəvi cəhətlərinin mahiyyəti rus mədəniyyətşünaslığı və sənətşünaslığı fonunda kiçildilmiş və "beynəlmiləlçi" mədəniyyətin təbliği, inkişaf etdirilməsi adı altında ayrı-ayrı xalqların milli-etnik, dini-rasional xüsusiyyətlərinin tədqiqinə az diqqət yetirilmişdir. Lakin Azərbaycanın mədəniyyət və incəsənəti qədim tarixi köklərə malik olduğundan, bəşəri təkamülün bütün mərhələlərində ənənəvi milli yaradıcılıq prinsipləri qorunub saxlanılmış, sənətin müasir mərhələsində də varislik amili öz əhəmiyyətini itirməmişdir.

Məhz müasir mərhələdə dini və milli adət-

ənənələrimizin icra edilməsi prosesində siyasi və ideoloji amillərin aradan qaldırıldığını nəzərə alaraq deyə bilərik ki, milli və dini adət-ənənələrimizdəki bədii-emosional cəhətlərin tədqiq olunmasına, onlarla əlaqədar folklor nümunələrinin aşkar olunmasına böyük ehtiyac vardır. Bədii-estetik dəyərə malik olan incəsənət nümunələrini araşdırmaqla milli dəyərlərimizi bütün dünya miqyasında nümayiş etdirmək mümkündür.

Müasir dövrdə milli mentalitetimizdə bədii-estetik duyumu aşkar edən tarixi faktların və mənəvi-emosional materialların öyrənilməsi, bədii-estetik dəyərlərlə milli-ənənəvi təkamülün vəhdətinin araşdırılması, mədəni varisliyin davam etməsində incəsənət sahəsindəki tarixi təcrübənin rolunun dəqiqləşdirilməsi əsas yer tutur. Bu məqsədlə Azərbaycanın musiqi, teatr, təsviri incəsənət tarixinə, dünya muzeylərində mühafizə olunan milli sənət nümunələrimizə istinad edilir. İncəsənətin müxtəlif sahələrinə aid olan kitablar, qəzet və jurnal məqalələri, muzey eksponatları təhlil olunur və araşdırılır.

Ənənəvi sənət nümunələri ilə müasir bədii yaradıcılığın xüsusiyyətləri arasında müqayisəli təhlillər aparılır. Azərbaycanın və dünyanın görkəmli alimlərinin ənənəvi incəsənətə, milli mədəniyyətə aid fikirlərinə münasibət bildirilir.

Azərbaycanın mənəvi mədəniyyətini araşdırarkən xalqın ictimai həyatında xalq bayramlarının aparıcı rol oynadığının şahidi oluruq. Burada "Novruz", "Xıdır Nəbi", "Çoban bayramı", "Məhsul bayramı", "Gül-çiçək bayramı", "İlk şum", "Qızılgül" bayramının adını çəkmək olar. Vaxtilə su ayini və qadınlarla bağlı bayramlar da olub. Lakin bunların heç biri öz dolğunluğu, bütövlüyü ilə saxlanılmamışdır.

Bu gün Novruz islamaqədərki bayramlar arasında kütləvi şəkildə keçirilən yeganə bayramdır. Lakin Novruz heç də keçmiş, ilkin versiyasında və tam dolğunluğu ilə keçirilmir, onun bir sıra atributlarına əməl olunmur.

Novruz bahar bayramı kimi Şərqdə bir sıra ölkələrdə çox geniş keçirilir. Bayram birbaşa yazın gəlişi, həyatın, təbiətin oyanması, yeniləşməsi ilə bağlıdır. Bununla yanaşı bu bayramı keçirən hər bir xalq onun tarixi köklərini cəmiyyətdə də axtarmış, tarixi hadisələri və şəxsiyyətləri, Novruz bayramını islama uyğunlaşdırmağa çalışmışlar. Bizim də əsas vəzifəmiz xalq bayramlarını bütün dolğunluğu ilə bərpa edərək yenidən xalqa qaytarmaqdan ibarət olmalıdır.

O cümlədən, geniş bir sahəni əhatə edən xalq yaradıcılığı, epos və dastanlarımız, xalq oyunlarımız kimi milli-mənəvi dəyərlərimiz qədim əcdadlarımızın yaşayış tərzi, dünyagörüşü, həyata etik-estetik, fəlsəfi baxışları barədə aydın təsəvvür yaradır. Bu gün xalqımızın keçmiş zəngin mədəniyyət xəzinəsi olan fiziki hərəkətlər, xalq oyunları müasir mədəniyyətimizin də formalaşmasına və inkişafına güclü təsir göstərən amillərdən birinə çevrilməlidir.

Qədim və müasir incəsənətimizin gözəl nümunələri bir çox ölkələrdə məşhurdur. Milli-mənəvi dəyər kimi muğam artıq təkcə bizim Azərbaycanın yox, bütün dünyanın sərvətidir. Bizim məqsədimiz muğamı qorumaq, inkişaf etdirmək, muğamın gözəlliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaqdır. Aşıq musiqisini, folklorumuzu, adət-ənənələrimizi, rəqslərimizi, milli geyimlərimizi beynəlxalq arenaya çıxarmaq və dünya dövlətlərinə tanıtmaq hər birimiz üzərinə düşən vəzifədir.

Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünki və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini, milli-mənəvi dəyərlərini dünyaya nümayiş etdirmək məqsədilə bir sıra tədbirlər, mərasimlər həyata keçirilə bilər. Bunlar milli-mənəvi dəyərlərin qorunmasına, azərbaycançılıq məfkurəsinin geniş təbliğ olunmasına kömək etmək, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

"Təqvimdə olan tarixi günlərimiz" ədəbi-bədii gecənin təşkili. Tədbirdə ölkəmizdə keçirilən tarixi günlərin əhəmiyyəti, təbliği üsulları, bayramlarımız haqqında geniş, ətraflı söhbətlərin aparılması nəzərdə tutulur.

"Milli-mənəvi dəyərlərimiz mədəniyyət incisi kimi" sosioloji sorğunun təşkili. Sorğunun məktəblilər arasında keçirilməsi daha məqsədəuyğun ola bilər. Sorğunun məqsədi məktəblilərin, yeniyetmələrin mənəvi dəyərlərimiz haqqında olan biliklərini yoxlamaq, onlara mənəvi dəyərlərimizin qorunması, tanınması üsullarını aşılamaq və ümumilikdə onları milli-mənəvi dəyərlərimiz haqqında maarifləndirməkdir.

"Abidələrin mühafizəsi günü" ilə bağlı treninqin təşkili. Bu tədbirin İncəsənət universitetinin tələbələri ilə keçirilməsi daha məqsədəuyğundur. Onlarla tarixi, memarlıq, arxeoloji abidələrimiz və onların qorunması, təbliği haqqında söhbətlər aparmaq, onlara tövsiyələr vermək və s. mümkündür.

Dərnək iştirakçıları ilə ekskursiyaların təşkili. Turistlərin dəvət olunması və onlara milli-mənəvi dəyərlərimizi tanıtmaq, aşılamaq və s. nəzərdə tutulur. Məsələn, mütəxəssislərin dəvəti ilə hər hansı bir abidəni tədqiq etmək olar. Bununla yanaşı milli-mənəvi dəyərlərimiz barədə seminarların, mühazirələrin təşkili, söhbətlərin aparılması və s. mümkündür.

"Milli-mənəvi dəyərlərimizin beynəlxalq arenada təbliği" adlı tədbirin təşkili. Bu tədbirdə milli-mənəvi irsimizin təbliğini sadəcə öz dövlətimizin daxilində, öz xalqımızın şüurunda deyil, həm də beynəlxalq aləmdə uğurla həyata keçirmək mümkündür. Bu gün dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda da mədəniyyət günləri keçirilir. Müxtəlif dövlətlərdə Azərbaycan günləri qeyd edilərkən əcnəbi xalqların Nizami, Füzuli irsi ilə, "Kitabi-Dədə Qorqud" fəlsəfəsi ilə tanış olmaları, onların təsəvvüründə, şüurunda mədəni irsimiz, milli mentalitetimiz və tarixi keçmişimiz haqqında ən vacib biliklər yaradılmalı və yüksək fikirlər oyadılmalıdır.

**"Milli-mənəvi dəyərlərimizi bugünki və gələcək nəsillərə tanıdaq" adlı dəyirmi masanın təşkili. Burada müxtəlif rayonların mədəniyyət mərkəzlərinin işçilərinin, qonaqların dəvəti ilə dəyirmi masa keçirmək olar. Tədbirdə "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" kimi sənət abidələrimizin, dastanlarımızın, unudulmuş adət-ənənələrimizin təbliğindən, Azərbaycan xalqının keçmiş dünyagörüşü ilə indikinin müqayisəsi, milli xarakteri, dini, fəlsəfi və psixoloji görüşləri, əxlaqi, ailə və cəmiyyət münasibətləri, vətən, torpaq sevgisi, dilimizin şirinliyi, aşıq havasının ürəkləri oxşayan həzinliyi və s. bu kimi söhbətlər aparıla bilər.**

Rəhilə ƏMİRƏLİ,
*Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin metodisti*

## Ədəbiyyat

1.İsmayılov H. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Nəşriyyat: "Səda", Bakı, 2003
2.Quliyeva X. Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Bakı, 2002.
3.Azərbaycan gəncliyi və milli-mənəvi dəyərlərimiz. / Jalə. // Yeni Azərbaycan. - 2008.-8 yanvar
4.Milli-mədəni irsimiz ən qiymətli sərvətimizdir. (Elmi-praktik konfransda dinlənilən məruzələr). Bakı- 2004
5.Azərbaycan - rəsmi dövlət qəzeti. 16 Yanvar 2008.
6.www.azernews.net
7.www.bizimasr.media-az
8.www. express.com
9.www. 525ci.com
10.www. olaylar.net